# ŞAMAXI XANLIĞININ TARİXİNƏ DAİR

***N.Ş.Bayramova*****
*(*Azərbaycan Milli Elmlər Akademiyası)*

## GİRİŞ

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbpaycan xalqı tarixin ayrı-ayrı dövrlərində olduğu kimi XVIII yüzilliyin ortalarında meydana gəlmiş xanlıqlar dövründə də öz dövlətçilik ənənələrini bərpa etməklə siyasi müstəqilliyə nail olmuşdur. Həmin dövrdə Azərbaycan dövləti tarix səhnəsinə vahid şəkildə deyil, ayrı-ayrı feodal dövlətləri-xanlıqlar formasında daxil olmuşdur. XVIII yüzillik xanlıqlar dövrü tarixinin, xüsusən də bu dövrün pozitiv cəhətlərinin üzə çıxarılmasının tam təminata ehtiyacı vardır. Bu mənada Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının yaranması, iqtisadi həyatı, əsasən də onun qonşu dövlətlərlə münasibətlərinin tədqiqi bu gün də öz aktuallığı ilə fərqlənir. Xanlığın yaranması, xanlıqda olan ikihakimiyyətlilik məsələsinə, xanlığın qonşu dövlətlərlə münasibətlərinə sovet dövrünün həm rus, həm də Azərbaycan tarixşünaslığınıda birtərəfli şəkildə yanaşılmış, Osmanlı imperiyası ilə olan siyasi münasibətələri isə demək olar ki, kölgədə qalmışdır.

İlk öncə xanlığın «Şirvan» və ya «Şamaxı» xanlığı adlandırılması məsələsinə aydınlıq gətirək. Tədqiqatçılarımız uzun müddət bu məsələyə öz münasibətlərini bildirməmişlər. S.Bronevski öz əsərində[1] qeyd edir ki, Alazan çayının sol sahilində yerləşən Şirvan bölgəsinə Şəki, Şamaxı və Salyan daxildir. Müəllif xanlığın sərhədlərini şimalda Quba xanlığı, şərqdə Bakı xanlığı, cənubda Muğan düzü və Qarabağ xanlığı ilə, qərbdə isə Göyçay çayı ilə hüdudlandırır.[2] Lakin onun səhvi onda idi ki, Dağıstan tərəfdən xanlığın sərhəddinin Rubas çayına qədər uzandığını göstərdiyi halda, həm də Samur çayını Quba xanlığının sərhədi kimi vermişdir. Rubas çayı isə məlumdur ki, Dərbənddən axır.[3] S.Qmelin də həmçinin göstərir ki, hələ Nadir şah dövründə Şamaxı şəhərinin ətrafındakı kəndlər, Ağsu, qərbdən Cöyçay çayına, şimaldan Altıağac və şərqdən Navahi kəndinə qədər olan ərazilər xanlığın əsasını qoyan Sərkərlər nəslindən olan Allahverdi bəyə məxsus olmuşdur[4] ki, bu ərazi də

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

[1] Броневский С.Б. **Новейшие географические и исторические известия о Кавказе,** ч. II, М., 1823, 465 с. с.157.

[2]Bronevckiy, eyni yer.

[3] **Энциклопедический словарь**, том XVII, СПб, 1899, s. 197.

[4] Гмелин С.Г.**Путешествие по России для исследования всех трех царство природы** СПб., 1785, ч. III, s. 90-91.

bütün Şirvan adlanan regionu yox, Şamaxı xanlığının sərhədlərini əhatə edir. Ola bilsin ki, Şamaxı xanları özlərini «Şirvan xanı» adlandırmışlar. Lakin bu da xanlığın «Şirvan xanlığı» adlandırılmasına heç bir əsas vermir. Çünki rus mənbələrində bu xanlıq gah Şirvan, gah da Şamaxı xanlığı adlandırılır. Osmanlı mənbələrində[1] isə nəinki Şamaxı xanlığı, hətta Quba, Şəki xanları belə Şirvan xanları kimi təqdim edilmişdir. Buradan belə bir qənaətə gəlmək olar ki, Şirvan regionunda müstəqil xanlıq taxt-tacına sahib olan hər bir xan qonşu dövlətlərlə yazışmalarında özünü Şirvan hakimi kimi təqdim etmişdir.

Mənbələrin tədqiqi zamanı müəyyən olunmuşdur ki, Sərkərlər nəslinə mənsub olan Şamaxı xanları minillik tarixə malik olan Şirvanşahlar dövlətini bərpa etməyi qarşılarına məqsəd qoymamış və bu qüdrətə də malik ola bilməmişlər. Şamaxı xanları da əksər Azərbaycan xanları kimi yalnız xanlığın müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizə aparmışlar.

Nadir şah Əfşarın yaratdığı imperiyanın dağılması ilə əlaqədar XVIII yüzilliyin ortalarında Köhnə Şamaxıda varlı ailədən olan Xançobanı tayfasının Sərkərlər nəslinin nümayəndəsi Allahverdi bəyin oğlanlarının, Yeni Şamaxıda isə Hacı Məhəmmədlinin hakimiyyətə gəlməsi ilə ikihakimiyyətlilik əsasında Şamaxıda müstəqil xanlıq yaranır. Tədqiqat zamanı Şamaxı xanlarının heç bir hakimə vergi ödəmədiyi müəyyən olunmuşdur. Bu isə Şamaxı xanlığının müstəqil olaraq yaranmasına əsaslı sübut ola bilər. Xanlığın müstəqil olaraq yaranması faktı ilə əlaqədar B.Dornun əsərində[2] bəzi ziddiyyətli məqamlara aydınlıq gətirmək istərdik. Belə ki, B.Dorn yanlış olaraq Məhəmmədsəid xanın 1748-ci ildə Köhnə Şamaxıda Kərim xan Zənd tərəfindən xanlıq taxtına çıxarılmasını göstərir. Kərim xan Zənd isə yalnız 1752-ci ildə Mərkəzi və Qərbi İranda rəqiblərini məğlub edir[3] və burada hakimliyə sahib olur. Dornun verdiyi səhv mülahizənin əksinə olaraq buradan belə nəticə çıxır ki, 50-ci illərdə İranda hələ öz mövqeyini möhkəmləndirməyə, özünü şah yox, vəkil adlandıran Kərim xan Zənd 1748-ci ildə Şimali Azərbaycanda böyük nüfuz üstünlüyünə malik ola bilməzdi və Şamaxı xanlığına da xan təyin edə bilməzdi. Bu məsələyə toxunan F.Əliyev isə yazırdı ki, Kərim xan şiələrdən ehtiyat etdiyinə görə ömrünün axırına kimi «vəkil» titulu ilə məhdudlaşıb özünü şah elan edə bilməmişdi.[4] Yanlış fikirlərə belə yeni faktlar əsasında aydınlıq gətirməklə, Nadir şahın ölümündən sonra Şimali Azərbaycanın İranın təsir dairəsində olmadığını bir daha sübut etmiş olarıq.

Digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığı da inzibati cəhətdən mahallara bölünürdü. Xanlığın 17 mahalı olmuşdur. Mahalları bəylərdən təyin

---

[1] **Baş Bakanlıq Osmanlı Arşivi Hatti Humayun** (BOA HH), sənəd 10, 336.

[2] Дорн Б.А. **История Ширвана с.1538-1820 гг**. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, f.1,siy 9, sənəd 4733.

[3] Алиев С.М**. Междоусобное войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха. Иран, история и культура в середине века и новое время**. М., 1980, s.39.

[4] Əliyev F. Həsənov Ü. **İrəvan xanlığı**, Azərnəşr. Bakı, 1997, səh. 56, 120 səh.

olunmuş mahal naibləri idarə edirdilər. M.Biberşteyn «ən zəngin xanlıq»[1] adlandırdığı Şamaxı xanlığını təbii sərvətlərinə görə digər Azərbaycan xanlıqlarından fərqləndirmişdi. Bu səbəbdəndir ki, Şamaxı xanları Salyan, Xançobanı və digər sərhəddə yerləşən mahalları ələ keçirmək istəyən qonşu Quba, Qarabağ və Lənkəran xanlıqları ilə intensiv olaraq mübarizə aparmışdı. Buna görə də xanlığın mahallarının inzibati sərhədləri sabit qalmamışdı.

Şamaxı xanlığının hərbi-siyasi vəziyyətinə dair müxtəlif maraqlı məlumatlar vardır. Mənbələrə istinad edən E.Məmmədova göstərir ki Şamaxı xanlığı çox güclü hərbi qüvvəyə malik idi və 10 min, bəzən isə 12 min nəfərlik qoşun toplaya bilirdi.[2] Məhz hərbi cəhətdən güclü olmasının nəticəsi idi ki, xanlıq səkkiz il Quba xanlığının birləşdirmə siyasətinə qarşı mübarizə aparmışdı. Qubalı Fətəli xan bu məqsədlə dəfələrlə Şamaxı xanlığı üzərinə hərbi yürüş etmiş, lakin hər dəfə itki verərək geri çəkilmiş,[3] yalnız 1768-ci ildə şəkili Hüseyn xan ilə birləşərək xanlığın ərazisini Şimal-Şərqi Azərbaycan torpaqlarına daxil edə bilmişdir. Şamaxı xanlığı Quba xanlığının tərkibində 1789-cu ilə kimi qalmasına baxmayaraq öz müstəqilliyinə yenidən nail olmaq üçün davamlı olaraq mübarizə aparmışdır.

N. Dubrovin haqlı olaraq göstərir ki, xanlıqların bir-birinə münasibəti tez-tez dəyişirdi. Bunun isə yeganə səbəbi xanlıqların yarandığı ilk illərdə hər hansı bir ərazi üstündə mənafe toqquşmaları idi.[4] Yeri gəlmişkən qeyd edək ki, bu münasibətlər beynəlxalq şəraitdən də asılı olaraq tez-tez istiqamətini dəyişirdi. Məsələyə bir qədər aydınlıq gətirmək üçün Şamaxı xanlığının qonşu Qacarlar İranı, Osmanlı dövləti və çar Rusiyası ilə münasibətlərinə nəzər salaq. Nadir şah imperiyasının dağılmasından sonra İranda taxt-tac uğrunda Qacarlarla Zəndlilər arasında qarşıdurma baş verən zaman Şamaxıda ikihakimiyyətlilik dövrü idi. Bu zaman Hacı Məhəmmədli xan Qacarlara qarşı idisə, Zəndilər Qacarların Azərbaycanın şimal torpaqlarına olan iddiası ilə əlaqədar olaraq əks tərəflə – yəni Köhnə Şamaxıda Sərkərlərlə ittifaqa üstünlük verirdilər.

Ümumiyyətlə, 1761-cı ilə qədər davam edən ikihakimiyyətlilik şəraitində Şamaxı xanlığının İran ilə münasibətləri xeyli ziddiyyətli olmuşdur. 1792-ci ildə Şamaxı xanlığında hakimiyyətə sahib olan Mustafa xan isə Qacarlarla münasibətində diplomatik manevr edərək tabe olmaqdan həmişə imtina etmişdir.

---

[1] Биберштейн М.**Описание провинций расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура** (Перев с Соловой). Научн. Архив Института Истории им. А.А.Бакыханова, ф.1, оп.2, док. 467, с. 16.

[2] Мамедова Э.К.**Административное устройства и управление азербайджанских ханство во второй половине XVIII века**. Б., 1999. Дис. канд. наук. с. 133.

[3] Səfərov Ə.R**. Azərbaycanın Şirvan xanlığının Rusiya ilə birləşməsi və Şamaxı şəhərinin bərpası.** Nam. diss. B., 1954, s.35.

[4] Дубровин Н.Ф. **История войны и владычества русских на Кавказе**. СПб., 1888, т. IV, с.13.

Qacarın 1795-ci ildə Cənubi Qafqaza olan yürüşü zamanı rus tarixçisi N.Dubrovin Şəki, Şamaxı və Bakı xanlıqlarının tərəddüd etdiklərini göstərir. Onlar son nəticədə öz mülklərini İran ordusunun talanlarından xilas etmək naminə Qacardan vassal asılılığını qəbul etdiklərini bildirirlər.[1] O.P.Butkov göstərir ki, Mustafa xan Qacara tabe olmaqdan imtina edərək Rusiyadan kömək almaq üçün yollar axtarmışdır.[2] Əslində isə o Fitdağ qalasında möhkəmlənməyə hazırlaşırdı. İbrahim Yüksel isə göstərir ki, Azərbaycanın Şimal xanlıqlarının bəziləri Qacara qarşı Osmanlı dövlətindən yardım istəmişdir.[3] Həmin məlumat Türkiyə Respublikasının Baş Bakanlıq Arxivinin «Xəttin-Humayın» fondundan əldə etdiyimiz bir sənədlə[4] təsdiqlənir. Mustafa xanın eyni zamanda həm Rusiyaya, həm də Osmanlı dövlətinə müraciət etməsi xanlığın müstəqilliyini qoruması üçün onun manevr etdiyini göstərir. Mustafa xan Qarabaq, Gəncə, Şəki və Quba xanlıqlarından fərqli olaraq Fətəli şahın (1797-1834) da tabe olmaq haqqında tələbini rədd edir və «şah qələmi elə mənim özümdə də var» deyə şahın hakimiyyətini tanımır.[5]

Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətləri haqqında həm rus, həm də Osmanlı mənbələri məlumat verir. Qacarın hücum təhlükəsi ilə bağlı qarabağla İbrahimxəlil xan öz nümayəndəsi Seyid Abdulla Çələbi vasitəsi ilə Osmanlı sultanına məktub göndərir. Burada İbrahimxəlil xan gəncəli Cavad xanın, şəkili Məhəmmədhəsən xanın, dağıstanlı Ümmə xanın, Kartli-Kaxeti çarı II İraklinin, o cümlədən şamaxılı Mustafa xanın adından türk sultanına müraciəti öz əksini tapmışdır.[6]

Şamaxı xanlığının müstəqil siyasət yeritməsi beynəlxalq münasibətlərdə müstəmləkəsilik siyasəti ilə daha çox fərqlənən çar Rusiyasını qane etmirdi.

Şamaxı Niyazabad xəttilə Rusiyanın cənub sərhədlərinə yaxın olduğu üçün Azərbaycan-Rusiya ticarətində mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda gələcəkdə Xəzərsahili əraziləri ələ keçirmək üçün hərbi qüvvələrin Şamaxı ərazisindən keçməsi daha əlverişli idi. Şamaxı xanlıqlar dövründə də rus-Azərbaycan ticarətinin mərkəzi idi. Bu isə qubalı Fətəli xanı qane etmədiyindən Şamaxıda yerləşən rus ticarət mərkəzinin Salyana köçürülməsini rus hökumətinin diqqətinə çatdırırdı.[7] Rəşt müqaviləsinin (1732-cu il) şərtlərinə görə Azərbaycanda gömrüksüz ticarət hüququnu alan rus tacirləri xanlıqlar dövründə də

---

[1] Дубровин Н.Ф. **Георгий XII последний царь Грузии и присоединение ее к России**. СПб., 1867, с.10.
[2] Бутков П.Г. **Материал для новой истории Кавказа. С. 1722 по 1803,** СПб., 1869, т. II, 332.
[3] İbrahim Yüksel**. Çarlıq Rusiyasının Azərbaycanı istilası və Osmanlı devletinin tutumu**// Kafkas Araştırmaları. İstanbul, 1988, s.30.
[4] **Baş Bakanlıq Osmanlı Arşivi Hatti Humayun** (BOA HH, sənəd 6748).
[5] Левиатов В.Н**. Очерки из истории Азербайджана в XVIII веке**. Баку, 1948, ст.193.
[6] **BOA HH**, sənəd 6748.
[7] Рагимов Т.Р. **Из истории Азербайджано-русских дипломатических отношение во второй половине XVIII, в начале XIX веков,** Баку, 1997, ст.41.

bu hüququ saxlayırdılar. Quba xanlığının təsir dairəsindən çıxdıqdan sonra Şamaxı xanları Fətəli xandan fərqli olaraq Rəşt müqaviləsinin şərtlərinə məhəl qoymurdular.[1]

Qacarın Azərbaycanın Arazdan şimaldakı torpaqlarına və Tiflisə qoşun yeritməsinə cavab olaraq II Yekaterina hökuməti Cənubi Qafqaza hücum etmək haqqında qərar qəbul edir və A.Bakıxanovun təbirincə desək, imperatriçə İran ilə müharibəyə başlayır.[2] O. Markova isə göstərir ki, bu yürüşdə əsas məqsəd Xəzərsahili bölgələrdə rus ticarətinin üstünlüyünü qoruyub saxlamaq üçün Ağa Məhəmməd xan Qacarı cəzalandırmaq idi.[3] Qeyd edək ki, həmin ticarətdə Şamaxı mühüm rol oynadığı üçün Şamaxı xanlığının zəbt edilməsi xüsusilə diqqət mərkəzində idi.

Cənubi Qafqaza yürüş edən rus qoşunlarına Zubov komandan təyin edilir. Yürüş 1796-cı ilin aprelində başlayır. Avqustda Şamaxı yaxınlığında yerləşən rus qoşunları Yeni Şamaxıya doğru hərəkət edərkən Mustafa xan şəhərdən çıxaraq Fitdağ qalasında sığıncaq tapır. Mustafa xan Hacı Qədir adlı naibinə tapşırır ki, rus qoşunları Şamaxıdan keçib gedənə qədər onlara qarşı heç bir müqavimət göstərməsin. Digər tərəfdən Mustafa xan Zubova qarşı təşkil olunmuş sui-qəsddə iştirak edir.

## Nəticə

XIX yüzilliyin əvvəllərində də Mustafa xan diplomatik manevrlər edərək Rusiyaya tabe olmaq istəmir və xanlığın müstəqilliyinin qorunub saxlanması üçün rus generalı Sisianov ilə danışıqları uzadırdı. Fitdağ qalasında yenə özünə sığınacaq tapan xan özünün hazırlıq tədbirlərini görürüdü. Lakin uzun sürən danışıqlardan sonra 1805-ci il avqustun 15-də Sisianov xana növbəti tələbləri göndərdi, dekabrın 27-də isə xanın «istəklərinə uyğun» imzalanmış müqavilə nəticəsində Şamaxı xanlığı Rusiya tərəfindən işğal edilir.

Beləliklə,1747-ci ildə Nadir şahın ölümündən sonra yaranmış, güclü iqtisadi-siyasi potensiala malik olan Şamaxı xanlığı 1820-ci ilə kimi istər qonşu xanlıqlarla münasibətlərində, istərsə də qonşu dövlətlərlə münasibətlərində öz müstəqilliyini qoruyub saxlamaq üçün diplomatik manevrlər edərək daim mübarizə mövqeyində olmuşdur.

---

[1] Rəhimov. e.a.ə.. s. 4.
[2] Bakıxanov A.A. **Gülüstani-İrəm**. Bakı, 1951, s.182.
[3] Маркова О.П. **Россия, Закавказье и международные отношения в XVIII веке**. М., 1966, ст. 191.

## ƏDƏBİYYAT


1. Алиев С.М. “Междоусобное войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха”. **Иран, история и культура в середине века и новое время**. М., 1980.
2. Bakıxanov A.A., **Gülüstani-İrəm**. Bakı, 1951.
3. **Baş Bakanlıq Osmanlı Arşivi Hatti Humayun,** sənəd 10; 336; 6748.
4. Биберштейн М.,**Описание провинций расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура** (Перев с Соловой). Научн. Архив Института Истории им. А.А.Бакыханова, ф.1, оп.2, док. 467.
5. 5.Броневский С.Б., **Новейшие географические и исторические известия о Кавказе,** ч. II, М., 1823, 465 с.
6. Бутков П.Г., **Материал для новой истории Кавказа. С. 1722 по 1803,** СПб., 1869, т. II,
7. 7 Дорн Б.А., **История Ширвана с.1538-1820 гг**. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, f.1,siy 9, sənəd 4733.
8. Дубровин Н.Ф., **История войны и владычества русских на Кавказе**. т. IV, СПб., 1888.
9. 9.Дубровин Н.Ф., **Георгий XII последний царь Грузии и присоединение ее к России**. СПб., 1867.
10. **Энциклопедический словар**, том XVII, СПб, 1899,
11. Əliyev F. Həsənov Ü., **İrəvan xanlığı**, Azərnəşr. Bakı, 1997.
12. İbrahim Yüksel**.**, “Çarlıq Rusiyasının Azərbaycanı istilası və Osmanlı devletinin tutumu**”. Kafkas Araştırmaları.** İstanbul, 1988.
13. Гмелин С.Г., **Путешествие по России для исследования всех трех царство природы** СПб., 1785, ч. III,
14. 12. Левиатов В.Н., **Очерки из истории Азербайджана в XVIII веке.** Баку, 1948.
15. Мамедова Э.К.,**Административное устройства и управление азербайджанских ханство во второй половине XVIII века**. Баку., 1999. Дис. канд. наук. с. 133.
16. Маркова О.П., **Россия, Закавказье и международные отношения в XVIII веке**. М., 1966,
17. Рагимов Т.Р., **Из истории Азербайджано-русских дипломатических отношение во второй половине XVIII, в начале XIX веков,** Баку, 1997.
18. Səfərov Ə.R., **Azərbaycanın Şirvan xanlığının Rusiya ilə birləşməsi və Şamaxı şəhərinin bərpası. Nam. diss.** Bakı., 1954.


## Summary

## ABOUT HISTORY OF SHAMAKHY KHANATE


***N.SH.BAYRAMOVA***
*(Azerbaijan National Academy of Sciences)*



The article is devoted to the history of the Shamakhy khanate. Information is given about the territory and boundaries of the Shamakhy khanate in the article. At this time it was the diarchy time of the khanate, and the structure of the Guba khanate and Mustafa is analysed against the political situation in the time of authority of the khan (1792-1820).

The history of fighting is investigated, which took away the Shamakhy khanate for the occupying politics of the Russias of Qacarların and the tsar. Friendly relations are put to the forefront with the neighbouring states by relations with the Ottoman state of the khanate. The article is completed within the timescale of 1820 with the history of the tsar of Russia and of the Shamakhy khanate.



Key words: Mustafa mountain of khan, Shamakhy, which should stay, Qacar.